# BAKI-NOVOROSSİYSK NEFT KƏMƏRİ

BTC ilə yanaşı Azərbaycan nefti Bakı-Novorossiyk vasitəsilə də xaricə ötürülür.

1996-cı il fevralın 18-də Moskvada Azərbaycan neftinin Rusiya Federasiyası ərazisindən keçməklə Qara dənizin Novorossiysk limanına nəql olunması haqqında müqavilə imzalandı. Borunun neftlə doldurulmasına 1996-cı ilin oktyabrında başlanılmışdır. Kəmərin maksimum ötürmə qabiliyyəti gündə 105 min bareldir .1997-ci il oktyabrın 25-dən Azərbaycan nefti şimal boru kəməri vasitəsi ilə dünya bazarına çıxmış oldu. Bakı-Novorossiysk neft kəmərinin ümumi uzunluğu 1330 km, Azərbaycan ərazisindəki uzunluğu 231 km, kəmərin diametri isə 720 mm-dir. SOCAR kəmərin 231 km uzunluğunda olan Azərbaycan ərazisi ilə keçən hissəsinin operatorudur.

Bakı-Novorossiysk neft kəmərinin 3 nasos stansiyası (Səngəçal, Sumqayıt və Siyəzən) var. Kəmərin ölçmə stansiyası Şirvanovkada yerləşir.